**UOT 39**
**https://doi.org/10.59849/2710-0820.2026.1.239**

**Əliağa Məmmədli**
*Antropologiya elmləri doktoru, professor,*
*AMEA Arxeologiya və Antropologiya İnstitutu, şöbə müdiri*
*Azərbaycan*
*aliaghamammadli@gmail.com*
*https://orcid.org/0000-0003-3305-1173*

# SOVET VƏ POST-SOVET DÖVRÜ AZƏRBAYCAN ƏHALİSİNİN HƏYATINDA SOSİO-MƏDƏNİ DƏYİŞİKLİKLƏRİN BƏZİ LOKAL XÜSUSİYYƏTLƏRİ HAQQINDA (DAŞKƏSƏN ŞƏHƏRI MATERİALLARI ƏSASINDA)

***Açar sözlər:*** *Həyat tərzi, Daşkəsən, sənaye şəhəri, sosio-mədəni transformasiyalar, işsizlik, miqrasiya, sosial struktur*

## Giriş

Cəmiyyətin və mədəniyyətin belə bir sahəsini tapmaq çətindir ki, o sosiomədəni antropologiyanın tədqiqat hədəflərindən kənarda dursun. Keçmişdən qalan və bu gün də funksionallığını itirməyən, yəni insanların həyatına təsir edən təsəvvürlər, ətraf mühitə münasibət, insan fəaliyyətinin bütün sahələrinə nüfuz edən davranış qaydaları, şəxslərarası, qruplararası münasibətlər sistemləri və s. sosiomədəni antropologiyanın predmetini təşkil edir. Təsadufi deyil ki, qeyd olunan məsələlər son illərdə bir çox tədqiqatçıların diqqət mərkəzində olmuşdur (Ильдарханова, 2016; Хамфри, 2010; Ilchenko, 2017; Phillips, 2001; Schmidt, 2021). Xüsusilə bu məsələlərə diqqət köklü sosial-siyasi, iqtisadi transformsiyalar dövründə daha da artır. Sovetlər Birliyinin süqutu, ümumiyyətlə sosializm sisteminin dağılması böyük bir məkanda məskunlaşan çoxsaylı insan kütlələrini hərəkətə gətirmiş və onların mədəniyyətində, həyat tərzində, iqtisadi rifahında ciddi dəyişiklikləri şərtləndirmişdir. Müxtəlif elm sahələrinin nümayəndələri kimi də sosial-mədəni antropoloqlar da bu böyük transformasiyalar çərçivəsində öz payına düşən məsələləri tədqiq etməyə çalışırlar.

Yuxarı qeyd olunan proseslər, o cümlədən sovet dövründən post-sovet dövrünə keçid dünyada sürətlə gedən və XX əsrin 90-cı illərindən güclənən qloballaşma prosesləri fonunda gedir. Bu zaman insanların yaşayış tərzinə, düşüncələrinə, ünsiyyət formalarına az təsir etməyən müstəmləkə, imperialist, kommunist ideologiyası tarixən formalaşan ənənəvi mədəniyyətə təsirsiz ötüşmürdü. Qeyd etmək lazımdır ki, bu ideologiyanın təsiri altında ənənəvi mədəniyyətə nüfuz edən sosial-mədəni yeniliklər bəzən məcburən, bəzən isə könüllü yeridilirdi.

Tarixə nəzər saldıqda belə bir nəticəyə gəlmək olar ki, XIX əsrin sonları – XX əsrin əvvəllərində tədricən modernləşmə təsirinə məruz qalan Cənubi Qafqazın böyük bir hissəsində məskunlaşmış türk-müsəlman əhalisi (indiki azərbaycanlılar), daha doğrusu bu əhalinin elitar hissəsi, Rusiya vasitəsilə həyat tərzinə, mədəniyyətə daxil olan yenilikləri tədricən mənimsəməyə başladı. Bu yeniliklər özünü müəyyən dərəcədə iqtisadi fəaliyyətdə (yeni istehsal formaları, istehsalat münasibətləri), şəxslərarası münasibətlərdə, maddi mədəniyyətdə (geyim, ev əşyaları, yaşayış evləri və s.), və ən nəhayət özünüdərk etmədə, yüz illərlə hökm sürən müsəlman identikliyi ilə yanaşı etnik, milli identikliyin formalaşmasında biruzə verirdi.

Sirr deyil ki, XX əsrin əvvəllərində Cənubi Qafqazın türk-müsəlman əhalisinin intellektul elitası həm etnik, həm də milli identiklik axtarışına çıxmışdılar. Burada müxtəlif yanaşmaları qeyd etmək lazım olacaq. Tarixən formalaşmış və əksər müsəlman xalqlarına xas olan konfessional identikliyin dominant olması Cənubi Qafqazın türk-müsəlman əhalisi üçün də səciyyəvi olduğundan intellektul elitanın bir qrupu məhz islam ümməti prinsipini əsas tutaraq etnik və milli identikliyi önəmli hesab etmirdilər. Di-

gər bir qrup isə Cənubi Qafqazın türk-müsəlman əhalisini Anadolu türkləri ilə etnomədəni baxımdan eyni birlik hesab edərək türk identikliyinin tərəfdarı kimi çıxış edirdilər. Və nəhayət, qeyd olunan əhalinin ayrıca bir etnik birlik hesab edən və bunun əsasında onların etnik identikliyini Azərbaycan türkləri və ya azərbaycanlılar kimi müəyyən edən qrup. Təbiidir ki, etnik, milli identiklik ətrafında gedən müzakirələr dar bir dairə çərçivəsində gedirdi və xalqın əsas hissəsinin bunlar haqqında məlumatı yox idi.

Rusiya imperiyasının süquta uğraması nəticəsində meydana gələn Azərbaycan Xalq Cümhuriyyəti dövrü sosial-mədəni dəyişiklər üçün çox az bir müddətli həyat sürsədə bu dövrdə də müəyyən dəyişiklər baş vermişdir. İlk növbədə bu dəyişikliklər milli süur, etnik, milli identiklik ilə bağlı olmuşdur. Burada həm milli hökümətin qəbul etdiyi qərarları, həm də ki, o zaman cəmiyyətdə müşahidə olunan yenilikləri qeyd etmək lazımdır. Bu sahədə milli hökumətin həyata keçirdiyi və planlaşdırdığı tədbirlər qeyd edilməlidir.

Sovet hakimiyyətinin qurulması cəmiyyətə və mədəniyyətə Azərbaycan ənənəvi həyat fəaliyyəti sistemindən tamamilə fərqli elementlərin tədbiq edilməsini şərtləndirdi. Bir tərəfdən milli mədəniyyətin, təhsilin formalaşmasını, digər tərəfdən isə məzmun baxımından yeniliklərin ənənəvi mədəniyyətə tamamilə zidd olması. Sovet hakimiyyəti faktiki olaraq çar Rusiyasının ruslaşdırma siyasətinin davam edirdi. Burada Sovet hakimiyyətinin ortaya atdığı "doloy stıd", gender bərabərliyi, "doloy çadra", milli geyimə və musiqiyə mənfi münasibət və s. kimi məsələləri misal gətirmək olar.

Sovet dövrünün sosial-siyasi, mədəni prosesləri cəmiyyətin sosio-mədəni durumuna təsiri ayrıca bir məqalənin, araşdırmanın mövzusudur. Burada yalnız qeyd etmək lazımdır ki, adı çəkilən prosesləri bir neçə mərhələyə bölmək olar – 20-40-ci illərdə "yeni həyat tərzinin" cəmiyyətə yeridilməsi, ənənəvi mədəniyyətin "qalıq", "düşmən", yeni həyata zidd kimi təbliq edilməsi; post-stalin dövründə müəyyən dərəcədə "mülayimləşmə", milli məsələlərin (dövlət dili, Rusiyaya birləşdirilmə, yoxsa işqal və s.) ictimayyətləşmsi; 60-ci illərin "modernləşmə" ab-havası, Qərb mədəniyyətinin təsirinin güclənməsi; 70-80-ci illərin durğunluq dövrü; 80-ci illərin ikinci yarısında iqtisadi böhran və nəticə olaraq sovet ideologiyasının dağılması, yenidənqurma siyasəti, milli hərəkatların geniş vüsat alması. Bu dövrlərin hər birində antropoloji mövzularla bağlı məsələlər, məsələn, etnik identiklik, həyat tərzində ənənəvi və müasir elementlərin mövcudluğu, maddi və mənəvi mədəniyyətdə yeniliklər xüsusi araşdırma mövzusu ola bilər.

Sosio-mədəni dəyişikliklərin mahiyyəti ətrafında, onların səbəbləri və cəmiyyət üçün nəticələri haqqında geniş müzakirələr gedir. Şərti olaraq bu müzakirələr iştirakçılarını iki qrupa bölmək olar. Bir qrupu yenə də şərti olaraq "ənənəviçilər" adlandırmaq olar. Bu mövqe müəyyən dərəcədə rəsmi dövlət ideologiyasına uyğundur. Məsələn, "milli dəyərlərimiz" və onların qorunması zərurəti, "ənənəvi mədəniyyətimizin qorunub saxlanılması", "qərb mədəniyyətinin bizim mədəniyyətə mənfi təsiri" kimi şüarlar bu qəbildəndir. Belə yanaşmada daha çox siyasi kontekst nəzərə çarpır, nəinki bu yanaşmanı təmsil edən insanların fəlsəfi, ideoloji mövqeyi. Qeyd edilməlidir ki, bu şüarları səsləndirənlər tərəfindən hansı yollarla, üsullarla milli dəyərləri, adət-ənənələri qoruyub saxlamaq istədikləri aydın olmur, və ya təklif olunanlar bəsit və reallığına uyğun deyillər.

Bu proseslərin tədqiqinin zəruriliyi son illərdə Azərbaycanda baş verən sosial-siyasi, iqtisadi, mədəni sahələrdəki dəyişikliklərin xarakterilə, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrindəki mədəni xüsusiyyətlərilə şərtlənir. Bununla yanaşı, ölkənin sosial və iqtisadi inkişafında, insanların əmək fəaliyyətində və ailə məişətindəki etnomədəni xüsusiyyətlərindən müəyyən asılılığı da nəzərə almaq lazımdır. Bu xüsusiyyətlərin müəyyənləşdirilməsi və tədqiqi Azərbaycanın inkişafının strateji istiqamətlərinin işlənib hazırlanması üçün tutarlı elmi baza kimi çıxış edə bilər (Məmmədli, 2017).

Belə araşdırmaların tədqiqat predmeti kimi mədəniyyətin və cəmiyyətin muasir durumunda qlobal sosial proseslərin, əmək və məcburi miqrasiyaların, iqtisadiyyatda bazar mexanizmlərinin təşəkkülü və s. kimi sosial proseslərin təsirinin xarakteri və dərəcəsi çıxış edir. Məhşur ABŞ antropoloqu K.Hemfri qeyd edir ki, bu sahədə aparılan antropoloji tədqiqatlarda "iki imperativ xüsusilə vacibdir. Birincisi, tarixi və di-

gər kontekstləri nəzərə alaraq müqayisəli təhlilin əhəmiyyəti. İkincisi, tədqiqat vahid yanaşma tələb edir: konkret, dar bir mövzu üzərində çox işləmək, cəmiyyətin həyatının bu və ya digər şəkildə təsir etdiyi bütün cəhətləri dərk etmək lazımdır" (Хамфри, 2010, s.32).

Təbii ki, sözü gedən proseslərin ümumi, oxşar cəhətləri olsa da, onların lokal xüsusiyyətləri də mövcuddur. Məhz bu səbəbdən Azərbaycanın müxtəlif rayon və kəndlərində bu mövzuda tədqiqatların aparılması transformasiya proseslərinin daha dərindən tədqiq edilməsinə şərait yaradır.



***Daşkəsən şəhəri. Foto Ə.Məmmədli***

**Materiallar və metodlar.** Bu sahədə tədqiqata cəlb olunan ilk bölgələrdən biri Daşkəsən şəhəri və eyni adlı rayon olmuşdur. Bu yaşayış məntəqəsinin obyekt kimi seçilməsi təsadüfi deyildir. Sovet və Post-Sovet dövründə Azərbaycan əhalisinin həyatında sosio-mədəni dəyişikliklərin öyrənilməsi bu iki dövrün müqaisəsi yolu ilə aparılması nəzərdə tutulur. Xatırlatmaq lazımdır ki, keçən əsrin 60-80-ci illərində Sovet İttifaqının digər respublikalarında olduğu kimi Azərbaycanda da sovet həyat tərzinin, müxtəlif sosial qrupların məişət və mədəniyyətinin öyrənilməsinə sosial elmlərdə böyük yer verilirdi. Azərbaycan etnoqrafları da belə tədqiqatların keçirilməsində fəal iştirak edirdilər (Аббасов, 1980; Аббасов, 1987; Аббасов, Салимзаде, 1987; Ким, 1975). Məhz o dövrdə "yeni şəhərlərdə" həyat tərzinin öyrənilməsinə start verildi. Tədqiqat obyektinə çevrilən belə şəhərlərdən biri də Daşkəsən idi.

Müxtəlif yaş, sosial qruplara aid əhali arasında aparılan müsahiblər, müşahidələr əsasən aşağıdakı məsələlərin aydınlaşdırılması məqsədinə xidmət edirdi: tarixən formalaşmış ənənəvi mədəniyyətin müasir şəraitə uyğunlaşma prosesinin yerli xüsusiyyətləri, həyat təminatı sistemi (məskunluq mühiti, təsərrüfat yönümləri, əməyə münasibət, qida mədəniyyəti), davranış qaydalarının, adət-ənənələrin, insanların ənənəvi dünyagörüşlərinin (inanclar, etnotarixi yaddaş, mərasimlər və ənənələr) dəyişmə proseslərinin dinamikası, müasir ailənin və ailə münasibətlərinin xüsusiyyətlərini, ailədə şəxslərarası münasibətlərin strukturu, demoqrafik səciyyələr.

Daşkəsəndə aparılan tədqiqat həm də kəşfiyyat xarakteri daşıyırdı və gələcəkdə planlaşdırılan ümumimilli tədqiqatda nəzərdə tutulan sualların yoxlanılması nəzərdə tutulurdu. Müsahibə və sorğular Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya şöbəsinin əməkdaşları tərəfindən tərtib edilmiş Sorğu vərəqi vasitəsi ilə aparılırdı. Tədqiqat qarşısında qoyulan məqsədə çatmaq və vəzifələri yerinə yetirmək üçün sosial-mədəni antropologiyada tədbiq olunan müxtəlif metodlardan istifadə olunurdu. Sorğu vərəqinin ayrı-ayrı bölmələri təsərrüfat fəaliyyəti, etnik identiklik, dil davranışı, etnoslararası münasibətlər, miqrasiya meylləri, sosial-iqtisadi şəraitə, məişətə münasibət və s. məsələlərə həsr olmuşdu. Müsahibələr üçün informantlar tarixi yaddaşa malik, əhalinin həyat tərzi, adət-ənənələri, mədəniyyəti haqqında əsaslı biliklərin daşıcıyılar arasından seçilirdi. Bu məqsəd üçün müxtəlif kəndlərdə 100 yaxın respondentlə müsahibələr keçirildi.

İkinci Dünya müharibəsindən sonra təməli qoyulan bu şəhər əsasən dəmir filizi yataqlarının istifadəyə verilməsi ilə əlaqədar salınıb. Bundan sonra şəhərə və eyni adlı rayona əhali axını güclənmişdir. Daşkəsən şəhərinin salınmasında, ilk yaşayış evlərinin, sənaye müəssisələrinin inşasında alman əsirlərinin əməyindən geniş istifadə olunurdu.

Ümumilikdə, tədqiqatın əsas fərziyyələri ona əsaslanırdı ki, Azərbaycanda son 30-40 il ərzində sosio-mədəni sahədə çox ciddi transformasiyalar baş vermişdir. İnsanların həyat tərzində, davranış qaydalarında, məişət şəraitində müxtəlif istiqamətli dəyişikliklər ənənəvi mədəniyyətin bir çox sahələrinin tədricən aradan çıxmasına, tədricən isə məzmun baxımından dəyişməsilə nəticələnmişdir. Tədqiqatın ilkin nəti-

cələri bu fərziyyələri təsdiq etsə də, müəyyən proseslərin bu sahədə hələ də getdiyi üzə çıxmışdır.

Daşkəsən şəhərinin formalaşma tarixi sosial antropologiya baxımından müəyyən elmi maraq kəsb edir. Faktiki olaraq sıfırdan inşa edilən şəhərin memarlıq üslubunun, burada tədricən məskunlaşan insanların həyat tərzindəki yeniliklərin, müxtəlif bölgələrdən bu ərazilərə miqrasiya edən insanlar arasında ünsiyyət formaları və digər məsələlərin insan qruplarının geniş mənada mədəniyyətinin, yeni həyat şəraitində formalaşan davranış qaydalarının funksionallığının öyrənilməsi bir neçə səbəbdən önəmlidir. İlk növbədə sovet dövründə yeni sənaye şəhərlərinin salınması və inkişafı iqdisadi məsələlərin həlli ilə yanaşı, kommunist sistemi üçün mühüm ideoloji əhəmiyyət daşıyırdı. Belə ki, sovet hökumətinin etnik assimilyasiya siyasətinin yeni mərhələsi keçən əsrin 70-ci illərində geniş tətbiq edilən "sovet xalqı - yeni sosio-mədəni birlik kimi" anlayışında öz əksini tapmışdır (Ким, 1975). Bu anlayış "ölkədə yaşayan millətlərə münasibətdə rəsmi bəyanatların yüksək ritorikası arxasında gizlədilən intensiv assimilyasiya siyasətinin kod işarəsinə" çevrilmişdi (Thompson, 1989, s.66). Bu siyasət "yeni adət-ənənələrin", "yeni həyat tərzininin", "yeni insanın formalaşdırılması" kimi sloqanlarla səciyyələndirilə bilər. Bir qayda olaraq qeyd olunan proseslər "beynəlmiləşmə" termini ilə adlanırdı və bir çox sovet etnoqraflarının tədqiqatları bu istiqamətə yönəlmişdi. Təsadufi deyil ki, Azərbaycan tədqiqatçıları da bu mövzulara müraciət edirdilər (Аббасов, 1980; Аббасов, 1987; Аббасов, Салимзаде, 1987).

Yeni formalaşdırılan sənaye mərkəzlərində bu siyasət daha da intensiv surətdə tədbiq olunurdu, çünki belə şəhərlərin əhalisi müxtəlif bölgələrdən, o cümlədən SSRİ-nin müxtəlif yaşayış məntəqələrindən miqrantların hesabına formalaşdırılırdı. Bu miqrantlar bir qayda olaraq gənc yaşlarında idilər ki, belə "insan materialı" ideoloji "emala" daha uyğun hesab olunurdu.

Beləliklə, Daşkəsən rayonu 1930-cu ildə yaradılmış, 1956-cı ilədək Dəstəfur rayonu adlanmışdır. Rayon 1963-cü ildə ləğv edilərək Xanlar rayonuna (indiki Göygöl) qatılmış, 1965-ci ildən yenidən müstəqil rayon statusu almışdır. Azərbaycanın mühüm mədən-filiz sənayesi mərkəzi olan Daşkəsən rayonunu sovet dövründə "Azərbaycanın Uralı" adlandırırdılar.

Hələ 20-30 illərdə bu yerlərdə şəhər salmaq məqsədilə Stalinin sərəncamı ilə xüsusi komissiya yaradılır və sədri Qəzənfər Musabəyov təyin edilir. Musabəyov 1937 ildə repressiyaya uğradıqdan sonra bu komissiyaya Stalin özü rəhbərlik edir. Musabəyovun layihəsində dəmir filizinin emalı üçün zavod Gəncədə tikilməli idi. Boru prokat zavodu da orada tikilməli idi. 1920-1925 illərdə Zəylik zəy zavodunun bir neçə sobası işə salınmış, Çovdar və Quşçu kəndlərində isə barit (barium) yatağının işlənilməsi başlamışdır. İkinci Dünya müharibəsi başladığı üçün bütün işlər dayandı.

Yerli informantların verdiyi məlumata əsasən, bu əraziyə Daşkəsən şəhəri salınana qədər "85" deyirdilər. 85 rəqəmi burada yerləşən cəzaçəkmə düşərgənin nömrəsi idi. Eyni zamanda burada II Dünya müharibəsində əsir düşmüş almanların düşərgəsi də yerləşirdi. Onun nömrəsi isə 86 idi. Almanların burada olması şəhərin gələcək taleyinə ciddi təsir göstərmiş oldu. Belə ki, Daşkəsən şəhərinin layihəsini məhz əsir almanlar tərəfindən işlənib hazırlamışdır. Təəssüf ki, bu fakt yalnız bu şəhərdə yaşayan yaşlı informantlar məlumatlarına əsaslanır.

**Demoqrafik göstəricilər:**

| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 34,4 | 35,0 | 35,1 | 35,4 | 35,4 | 35,5 |
| Təbii artım, nəfər | 316 | 256 | 188 | 273 | 100 | 125 |
| Nikahların sayı | 278 | 210 | 225 | 233 | 113 | 208 |
| Boşanmaların sayı | 51 | 51 | 65 | 64 | 54 | 60 |

Azərbaycan regionları. Statistik məcmuə. Bakı, 2022, s.176

Şəhərin birinci dairəsi almanların tikdiyi binalar, ikinici dairə isə beşmərtəbə binalar olmuşdur. Daşkəsən şəhərini ilk yaşayış binalarını də əsir düşmüş alman mühəndisləri və fəhlələri tərəfindən tikmişlər. Bu evlər özünə məxsus memarlığı ilə seçilir və şəhərin mərkəzi hissəsini təşkil edir. Əsasən ikimərtəbəli və bir neçə üçmərtəbəli bina tikilmişdi. Yaşayış evləri və sənaye müəssisələri ilə yanaşı almanlar sosial təyinatlı binalar da tikirdilər. Məsələn, son vaxtlara qədər fəaliyyət göstərən məktəb binası, uşaq bağçası bu binalardandır. Qeyd etmək lazımdır ki, bu binalar yerli iqlimə, dağ relyefinə uyğun tikilirdilər. Məsələn, bina divarların qalınlığı 80 sm təşkil edirdi ki, soyuğa davam gətirsin. Onu da qeyd etmək yerinə düşər ki, almanlar özləri baraklarda yaşayırdılar.

Sovet dövründə yeni salınan şəhərlərin əhalisinin formalaşması da antropoloji aspektdən böyük maraq kəsb edir. Müxtəlif bölgələrdən olan insanlar müəyyən dərəcədə fərqli sosio-mədəni xüsusiyyətlərin daşıcıyıları olaraq ünsiyyətə girərək mədəni yeniliklərin meydana gəlməsi üçün zəmin yaradırdılar. Bu proseslərin nəticəsində ənənəvi mədəniyyətin bir çox elementləri öz funksionallığını itirir, onların əvəzinə isə yeni, sovet ideologiyası bazasında formalaşdırılan, mədəni elementlər tuturdu.

Daşkəsən də bu baxımdan digər "yeni şəhərlərdən" az seçilsə də buranın öz spesifik xüsusiyyətləri mövcud idi. Belə ki, şəhər salınan zaman bura həm də "iyirmi yeddilər" deyirdilər. Bu ad Daşkəsən şəhərinin ilk sakinlər, inşaatçıların təvvəllüd ili ilə bağlı idi. 1927-ci ildə doğulan bu insanlar 1941-1945-ci il müharibəsinin son aylarında əsgəri xidmət əvəzinə yeni şəhərin salınmasında iştirak etmək üçün onlara imtiyaz verilmişdi. Beləliklə, "iyirmi yeddilər" deyilən qrup Daşkəsən şəhərinin ilk sakinləri hesab olunur. Yuxarıda qeyd etdiyimiz əsir almanlar tərəfindən inşa edilən iki-, üç mərtəbəli evlərin sahibləri də məhz bu qrupun nümayəndələri idi. Bir çox informantların verdiyi məlumata görə, ilk "daşkəsənlilər" olan "iyirmi yeddilər" şəhərin ən nüfuzlu sakinləri sayılıb və bu gün də onların nəsilləri şəhər əhalisi arasında tanınır, onlara xüsusi hörmət edilir.

**Əhalinin sayı:**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Daşkəsən rayonu üzrə** | **35531** | **100,0** | **18253** | **100,0** | **17278** | **100,0** |
| şəhər əhalisi | 15409 | 43,37 | 7681 | 42,08 | 7728 | 44,73 |
| kənd əhalisi | 20122 | 56,63 | 10572 | 57,92 | 9550 | 55,27 |
| o cümlədən: | | | | | | |
| Daşkəsən şəhəri | 11211 | 31,55 | 5467 | 29,95 | 5744 | 33,25 |
| Alunitdağ qəsəbəsi | 727 | 2,05 | 386 | 2,11 | 341 | 1,97 |
| Quşçu körpüsü qəsəbəsi | 426 | 1,2 | 219 | 1,20 | 207 | 1,2 |
| Daşkəsən qəsəbəsi | 531 | 1,5 | 288 | 1,58 | 243 | 1,41 |
| Quşçu qəsəbəsi | 477 | 1,34 | 243 | 1,33 | 234 | 1,35 |
| Yuxarı Daşkəsən qəsəbəsi | 2037 | 5,73 | 1078 | 5,91 | 959 | 5,55 |

Azərbaycan regionları. Statistik məcmuə. Bakı, 2022, s.176

İnşa edilən yeni şəhərə Azərbaycanın bütün bölgələrindən gənclər cəlb olunmuşdu. Müasir Daşkəsən şəhər əhalisinin böyük əksəriyyəri bu insanların nəsillərindədir. Qeyd etmək lazımdır ki, SSRİ-nin bir çox bölgələrindən də "komsomol tikintisi" şüarı ilə çox sayda fəhlə, mütəxəssislər cəlb edilmişdi. Yerli yaşlı sakinlərin verdikləri məlumata görə "SSRİ-da yaşayan bir çox millətlərin nümayəndələri bu şəhərdə məskunlaşmışdı". Qeyd etmək lazımdır ki, o dövrü təsvir edərkən bir çox respondentlər pozitiv ifadələrdən, xatirələrdən istifadə edirdilər. Çox guman ki, buna səbəb təkcə sovet dövründə geniş aparılan ideoloji təbliğat deyil, həm də belə xatirələrlə bölüşən insanların gənc olması, bu səbəbdən həyat gözləntilərinin pozitiv olması amili olmuşdur. Heç şübhəsiz gənc insanların həyat strategiyalarının formalaşmasında dövrün ideoloji baxışları az rol oynamır. Lakin sosial-iqtisadi formasiyadan, dövlət quruluşundan, do-

minant ideologiyadan asılı olmayaraq insanların əksəriyyəti həyat planlarını qurarkən özləri üçün "işıqlı həyat" perspektivini planlaşdıdırlar.

Daşkəsənə köçənlərin əksəriyyətini peşə məktəblərini bitirmiş və bura göndərilmiş kəndlilər təşkil edirdi. Gənc kadrların hazırlanması məqsədilə 1944-cü ildə ali təhsil müəssisələrinin və texnikumların sonuncu kurs tələbələrini SSRİ-nin müxtəlif şəhərlərinə dağ-mədən sənayesində ixtisaslaşmaq üçün 60 nəfər tələbə göndərilmişdir.

Şəhər əhalisinin bir hissəsini də cəza müddətini bitirənlər idi. Şərti cəza alanlar, informatların dediyi kimi "volnıy poseleniye" olanlar, şəhərdə qalaraq evlənə bilirdilər, onlara düz mədənin içində ev tikməyə icazə verirdilər. Bir çox yaşlı informantların məlumatına görə, "volnıy poseleniye" olanlar heç bir qanun pozuntusuna yol vermirdilər.

Bir çox informantlar nostalji hissləri ilə qeyd edirlər ki, "Daşkəsən həqiqətən də "qardaşlıq" şəhəri olmuşdur". Onların verdiyi məlumata görə Azərbaycanın bu yeni salınmış şəhərində o dövrün sənaye şəhərlərinə xas olan həyat tərzi, davranış qaydaları, ünsiyyət formaları geniş yayılmışdı. Məsələn, etnoslararası nikahlar, asudə vaxtın rəqs meydançalarında keçirilməsi, gənclər arasında sərbəst ünsiyyətin qurulması ənənəvi Azərbaycan mentaliteti üçün şübhəsiz ki, yeniliklər hesab olunurdu. Xüsusilə, nəzərə almaq lazımdır ki, qeyd olunan həyat tərzindəki yeniliklər hələ də güclü sosial icma nəzarət sisteminin dominant olduğu kənd, kiçik şəhərlərdən Daşkəsənə gəlmiş gənc insanlara təsirsiz ötüşmürdü.

Onu da qeyd etmək lazımdır ki, sovet dövründə əhalinin əksəriyyəti üçün nəzərdə tutulmuş sosial imtiyazlar hələ də insanların o dövr haqqında pozitiv təsəvvürlərin dayanıqlığını təmin edir. Çox güman ki, belə xatirələrin müəyyən dərəcədə "mifləşməsi" sosial sahədə problemlərin mövcudluğu ilə əlaqəlidir. Məsələn, müsahibələr zamanı bir çox informantların dediyinə görə "sovetlər dövründə səhiyyə sahəsində vəziyyət çox yaxşı idi". Bu fikri təsdiq etmək üçün onlar belə misallar gətirirdilər: "kombinatın nəznində sanatoriy fəaliyyət göstərirdi və orada istirahət etmək işçilər üçün cəmi 25 manat (rubl) idi", "uşaqlar üçün pioner düşərgəsi fəaliyyət göstərirdi" və s. İnformantların dediyinə görə, "kəndlərdə xəstəxanalar fəaliyyət göstərirdi, mədəniyyət evləri, kitabxanalar işləyirdi". Respondentlər onu da etiraf edirlər ki, bu gün yeni, müasir xəstəxanalar tikilib, lakin ciddi kadr problemləri mövcuddur, məsələn müxtəlif ixtisaslı həkim kəskin çatışmır.

XX əsrin 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində sənayə istehsalının tənəzzülə uğraması və sonradan ümumiyyətlə dayanması Daşkəsən şəhər əhalisinin həyat tərzində ciddi dəyişikliklərə səbəb oldu. Bu prosesin nəticələrindən biri şəhərdən kəskin artan miqrasiya oldu. O zaman miqrasiya edənlərin tərkibinə nəzər saldıqda bir neçə qrupu qeyd etmək olar. İlk növbədə miqrasiya edənlərin etnik mənsubiyyəti şərti fərqləndirilən qrup. Bu qrupa əsasən ruslar və ermənilər daxildi. Bu iki etnik icma nümayəndələrinin Daşkəsəndən köçməsinin səbəbləri fərqli olsa da, burada etnik mənsubiyyət başlıca amil kimi çıxış edir. Bir çox yerli azərbaycanlıların miqrasiya etməsinin isə əsas səbəbi kimi işsizlik çıxış edirdi.

Nəzərə almaq lazımdır ki, Daşkəsən şəhəri salındıqda "bir şəhər – bir müəssisə", və yaxud "monoşəhər" prinsipinə üstünlük verilmişdi. "Monoşəhər" termini əsasən postsovet məkanında istifadə olunur. Elmi ədəbiyyatda həm də "monofunksional şəhər", "monosənaye şəhəri" kimi terminlərə də rast gəlmək olur. ABŞ və Almaniyada monosənaye şəhərləri "company towns" və "one-industry town" adlanır (Урожаева, 2016, s.35–39). Təbiidir ki, şəhərdə fəaliyyət göstərən bir müəssisə dayandıqda əhalinin böyük əksəriyyəti işini itirmişdir. Belə hall bir çoxlarının müvəqqəti işlə kifayyətlənməsi, və yaxud köçüb getməsi ilə nəticələnir. Qeyd edilməlidir ki, hal-hazırda Daşkəsən şəhərindən miqrasiya azalıb. Çox guman miqrasiyanın azalma tendensiyası potensial miqrantlar qrupunun tükənməsi ilə bağlıdır.

**Nəticə.** Daşkəsən rayonunda çöl tədqiqatları və toplanmış antropoloji materialların təhlili bəzi ilkin nəticələrə gəlməyə əsas verir.

Rayon əhalisinin etnomədəni tərkibi müxtəlifdir. Sorğular, müsahibələr təsdiq edir ki, tarixən buranın əhalisi Azərbaycanın müxtəlif yerlərindən bu ərazilərə gələrək məskunlaşıb. İnformantların verdiyi məlumatlara görə müntəzəm olaraq ətraf rayonlardan ayrı-ayrı qruplar buralara köçüb gəlib və məskən salıb. Bu köç-

mələrin səbəbləri əsasən ana kəndlərdə yerin, torpağın çatışmaması, qan davası, ailədaxili münaqişələr olmuşdur. Daha qədim zamanlarda bəylərin zülmündən qaçaraq bura gəlmişlər. Bu proseslər sovet hakimiyyəti qurulduqdan sonra-da davam etmişdir. XX əsrin ikinci yarısında filiz yataqlarının istismarı proqramı işə düşdükdə Daşkəsən şəhəri salınmış və buraya miqrasiyanın artması müşahidə olunmuşdur;

Daşkəsən şəhərinin salınması, tikinti işlrinin planlaşdırılması, həyata keçirilməsi, bu işlərdə alman əsirlərinin rolu maraqlı mövzu olaraq, antropoloji baxımdan yeni şəhərlərin salınması prosesini araşdırmaq üçün zəngin material təqdim edir. Daşkəsən haqqında yazılanlarda indiyə qədər almanların rolu kifayyət qədər işıqlandırılmayıb. Xüsusilə ilk yaşayış evlərinin memarlıq xüsusiyyətlərində, tikilmə üsullarında almanların tikinti mədəniyyəti açıq müşahidə olunur. O dövrdə salınan digər şəhərlərlə müqaisə xüsusilə elmi maraq kəsb edir.

Bir müəssisə-bir şəhər prinsipi ilə salınan Daşkəsən sosializm dövrü üçün şəhərsalınma prinsipinə əsaslanan nümunədir. Vaxtı ilə bu tip şəhərlər konkret sənaye sahəsinin intensiv inkişafına xidmət edir və şəhərin bütün həyat fəaliyyəti, infrastrukturu, planlaşdırılması bir məqsədə, sənaye müəssisəsinin işləməsinə tabe olurdu. Belə şəhərlərin ən əsas problemi məhz bir sənaye müəssisəsinin fəaliyyəti ilə bağlılıq idi. SSRİ dağıldıqdan sonra, müxtəlif sənaye sahələrinin tənəzzülə uğraması belə şəhərlərin işsizlik, həyat səviyyəsinin kəskin aşağı düşməsi və güclü miqrasiya prosesləri ilə müşahidə olunurdu. Daşkəsən bir müəssisə-bir şəhər prinsipi ilə salınan şəhər olduğu üçün bu problemlərdən kənarda qalmamaşdır.

Daşkəsən şəhərinin əhalisinin sosial strukturu kiçik sənaye şəhərləri üçün səciyyəvi idi. Yəni burada sovet dövründə yüksək ixtisaslı fəhlə peşələri, mühəndis-texniki personal təmsil olunurdu. Bununla yanaşı sosial sahədə yüksək ixtisaslı tibb, təhsil, mədəniyyət işçiləri çalışırdılar. XX əsrin 90-ci illərinin əvvəllərindən başlayaraq sənaye müəssisəsində işin dayanması ilə əlaqədar şəhərin müvafiq sosial strukturu da dağılmağa başladı. Yüksək ixtisaslı işçilər ya şəhərdən köçüb getməyə, ya da ki əmək fəaliyyət sahəsini deyişməyə məcbur oldular. Bu isə öz növbəsində insanların həyat tərzində dəyişiklikləri şərtləndirdi.

Daşkəsən şəhər əhalisinin etnik tərkibi müxtəlif olmuşdur. Bu bölgədə ermənilərin yaşama səbəbindən, şəhər salınanda onun əhalisinin bir qismini məhz ermənilər təşkil edirdi. Yeni sənaye şəhərinin formalaşmasında SSRİ-nin müxtəlif bölgələrindən buraya mütəxəssislər köçüb gəlir və beləliklə şəhərin etnik strukturunun formalaşmasına təsir edirdi. Təsadufi deyil ki, şəhər əhalisinin məişət və mədəniyyəti yeni, sənaye, polietnik şəhərlər üçün səciyyəvi idi. XX əsrin 90-ci illərinin əvvəllərindən başlayaraq sosial, iqtisadi və siyasi proseslərin güclü təsiri altında şəhərin və ümumiyyətlə rayonun etnik tərkibi polietnikdən monoetnik istiqamətində dəyişməyə başlayır. Bu və ya digər səbəblərdən köçüb gedən ermənilərin, rusların əvəzinə Daşkəsəndə Azərbaycanın müxtəlif bölgələrindən gələn insanlar məskunlaşmağa başladı.

Rayonda kənd təsərrüfatı sahəsində əsas məşğuliyyət maldarlıq, əkinçilik, arıçılıq olmuşdur. Sovet kolxoz, sovxoz sisteminin aradan çıxması və yeni təsərrüfat formalarının çətinliklə tədbiq edilməsi kənd əhalisinin həyat tərzinə ciddi təsir etmişdir. Təsadufi deyil ki, müsahibələrin bir çoxunda informantlar o dövrü nostalji hisslərlə xatırlayırlar və "həyatın yaxşı" olduğunu qeyd edirlər. Torpaqların paylanmasında, su, qaz, enerji sahələrində problemlərin olması, təsərrüfatla məşğul olmaq üçün vəsaitin olmaması kəndliləri iş dalınca şəhərlərə getməyə məcbur edir. Bir çoxları ənənəvi təsərrüfat sahələrini atıb arıçılıqla məşğul olmağa üstünlük verirlər. Bu sahədə az sərmayə tələb edir, lakin yaxşı gəlir gətirir.

Qeyd edildiyi kimi, Daşkəsəndə böyük sənaye müəssisələri olub. Hal-hazırda bu müəssisələr işləmir və müxtəlif sənaye obyektləri baxımsız vəziyyətdə olaraq təbiət və antropogen təsirlər altında məhv olur. İlk növbədə burada Dağ-Mədən Filizsaflaşdırma Kombinatının binasını, asma tor örtükləri, kanat yolunu, dəmir yolunu qeyd etməliyik. Tarixi sənaye obyektlərinin turizm məqsədləri üçün istifadə edilməsi geniş dünya praktikasına malikdir. Daşkəsənin sənaye obyektlərini belə məqsədlər üçün istifadə edilməsi məqsədə uyğun olardı.

Rayonun və Daşkəsən əhalisinin əsas sosial problemi işsizlikdir. Müəssisələrin işləməsi in-

sanların müvəqqəti işlərlə kifayyətlənməyə vadar edir. Bir çoxları iş axtarışı üçün yaxınlıqda yerləşən Gəncə şəhərinə üz tutur. İşsizliyin törətdiyi problemlər insanların həyat tərzinə, məişətinə, şəxslərarası münasibətlərə ciddi təsir göstərir. İnformantların verdiyi məlumata görə, ailədaxili vəziyyətlərdə gərginliyin artma tendensiyası (bu fakt statistik göstəricilərlə də təsdiq olunur) bir qayda olaraq işsizlik, imkansızlıqla bağlıdır.

Daşkəsən rayonu tarixi, mədəni, sənaye abidələri ilə zəngin bölgədir. Burada çox sayda alban xristian məbədləri mövcuddur. Bu fakt bölgənin Qafqaz Albaniyası tarixini, memarlığını öyrənilmə baxımından çox maraqlı obyekt hesab olunmalıdır. Lakin, bir çox abidənin vəziyyəti qənaətbəxş deyildir. Onların dağınıq vəziyyətdə olması, mühafizənin aşağı səviyyəsi, bu abidələrə yolların pis vəziyyəti xüsusi diqqətin bu sahəyə yönəlməsini tələb edir.

## ƏDƏBİYYAT

Məmmədli, Ə.Ə. (2017). Müasir cəmiyyət və etnomədəni müxtəliflik (etnoloji oçerklər). Bakı.

Аббасов, А.А. (1980). Современный быт и культура горнопромышленных рабочих Азербайджана. Баку. Элм.

Аббасов, А.А. (1987). Образ жизни в новых городах Азербайджана. Баку. Элм.

Аббасов, А.А., Салимзаде, А.Г. (1987). Сумгаит – город братства. Баку. Азернешр.

Ильдарханова, Ч.И. (2016). Модернизация сельского Татарстана: социологическая теория и практика. Казань. Издательство "Фэн" Академии наук РТ.

Ким, М.П. и др. (1975). Советский народ - новая историческая общность людей: Становление и развитие. Москва. Наука.

Салимов, Т. А. (1983). Современный быт городского населения Азербайджана (по этнографическим материалам г.Али-Байрамлы). Автореферат дис. … канд. ист. наук. Тбилиси.

Урожаева, Т.П. (2016). Моногорода в 1980–1990-е годы: зарубежный, российский и региональный опыт решения социально-экономических проблем. Ученые Записки Петрозаводского Государственного Университета. Исторические науки и археология, Петрозаводск. № 3 (156), 35–39.

Хамфри, К. (2010). Постсоветские трансформации в азиатской части России. Антропологические очерки. Москва. Наталис.

Ilchenko, M. (2017) "Socialist cities" under post-Soviet conditions: symbolic changes and new ways of representation. Europa Regional, https://nbn-resolving.org/urn:nbn:de:0168-ssoar-59091-8

Phillips, A., James, P. (2001). National Identity between Tradition and Reflexive Modernisation: The Contradictions of Central Asia. National Identities. Vol. 3, No. 1.

Schmidt, M. (eds.). (2021). Beyond Post-Soviet: Layered Legacies and Transformations in Central Asia. Augsburg.

Thompson, T.L. (1989). Ideology and policy. The political uses of doctrine in the Soviet Union. Boulder, CO. Westview Press.

## Summary

**Aliagha Mammadli**

### On some local features of socio-cultural changes in the life of the Azerbaijani population in the Soviet and post-Soviet periods (Based on materials from the city of Dashkesan)

This article examines the transformations in the lifestyle of the population of Dashkasan, a settlement recognized as one of the newly industrialized cities in Azerbaijan. Specific features are examined in the formation of the city. The lifestyle of the population of Dashkasan, a 'Monocity', is compared across the Soviet and post-Soviet periods, with an emphasis on the factors that influenced these changes, their directions, specific characteristics, and the current state. The analysis is based on the assumption that the construction and development of new industrial cities during the Soviet

period, in addition to solving economic issues, was of great ideological importance for the communist system. This significance was due to the policy of the Soviet leadership to form a single, unified culture. As a result of this policy, many elements of ethnic culture disappeared. The article is based on materials collected during field research.

***Keywords:*** *Lifestyle, Dashkasan, industrial city, socio-cultural transformations, unemployment, migration, social structure*

## Резюме

**Алиага Мамедли**

### О некоторых локальных особенностях социокультурных изменений в жизни азербайджанского населения в советский и постсоветский периоды (По материалам города Дашкесан)

В статье рассматриваются трансформации образа жизни населения Дашкесана, населенного пункта, признанного одним из новых индустриальных городов Азербайджана. Рассматриваются особенности формирования города. Образ жизни населения Дашкесана, "моногорода", сравнивается в советский и постсоветский периоды, с акцентом на факторы, повлиявшие на эти изменения, их направления, специфические особенности и современное состояние. Анализ основан на предположении, что строительство и развитие новых промышленных городов в советский период, помимо решения экономических вопросов, имело большое идеологическое значение для коммунистической системы. Эта значимость была обусловлена проводимой советским руководством политикой формирования единой, унифицированной культуры. В результате такой политики многие элементы этнической культуры исчезали. Статья основана на материалах, собранных в ходе полевых исследований.

***Ключевые слова:*** *Образ жизни, Дашкесан, промышленный город, социально-культурные преобразования, безработица, миграция, социальная структура.*